# "Şuşa islam dünyasının mədəniyyət paytaxtı" adlı kitab sərgisi açılıb

**X Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində Milli Kitabxananın ekspozisiyasında "Şuşa islam dünyasının mədəniyyət paytaxtı" adlı kitab sərgisi təşkil olunub.**

Kitabxanadan AZƏRTAC-a bildirilib ki, sərginin açılışında Şuşanın azad olunmasında fədakarlıq göstərmiş xüsusi təyinatlıların komandiri və Şuşaya Azərbaycan bayrağını sancan polkovnik Rəşad Aslanov, 44 günlük Vətən müharibəsinin qəhrəmanları və ictimaiyyət nümayəndələri iştirak ediblər.






Sərgidə Şuşanın tarixi, mədəniyyəti və incəsənətinə dair Azərbaycan və müxtəlif dillərdə ədəbiyyatlar, həmçinin Milli Kitabxananın "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından hazırladığı görkəmli şəxslərin biblioqrafiyaları və musiqi notları nümayiş olunub.

---

Azərbaycan.- 2024.- 6 oktyabr (№219).- S.12.